Sərbəst

Hürriyyət

19 oktyabr / 2021

# Onun vəsiyyəti...



Allahverdi Eminov

## Unudulmazlar

***Professor Afad Qurbanov dilçi - alimlərimizdən ən məhsuldar fenomendir. Müxtəlif sahələrində sanballı kitablar yazmışdır xeylisi məhz ali pedaqoji institutlar üçündür. Bu, onun təhsillə sıx bağlılığından irəli gəlir. Deməli, Afad Qurbanov sözün həqiqi mənasında müəllimdir - pedaqoqdur. Auditoriyada bunu daha peşəkar hiss etmək mümkündür***



**İkinci gün idi (ölümündən azca gün əvvəl), üçüncü mərtəbədə üz-üzə gəldik. Beş-altı dəqiqə söhbət eləmişdik, filosof, mənim tələbə yoldaşım, dosent Yasin Qaraməmmədli də bizə qoşuldu. O, bu gün təhsilin heç də yaxşı olmayan durumundan gileyləndi: Xüsusilə, ali məktəblərdə öz tələbələrindən imtahan vaxtı "darılan" müəllimin nüfuzunun itməsindən. Hətta özüylə bağlı bir epizodu xatırlatdı və təəssüfləndi. Mənimçün maraqlı o idi ki, bu barədə mənfi emosiyalarını gizlətməyən, görkəmli dilçi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü professor Afad Qurbanov idi...**

Bu dilçi - alimi mən ilk dəfə Pedaqoji Universitetin I kursunda oxuyarkən (1959) görmüşdüm. Amma ailəmizdə ədəbiyyat müəllimi olduğundan pedaqoji mətbuatı vərəqləyirdim və "Afad Qurbanov V.İ.Lenin adına APİ-nin aspirantı imzası" ilə tanışdım. Uzun boylu, qıvrım saçlı, asta yerişli bu gəncin nüfuzu çoxuydu. Əsasən məşhur dilçi, professor Ə.Dəmirçizadə ilə yanaşı görürdüm. Azərbaycanda özünəməxsus elmi məktəb yaradan Əbdüləzəl Dəmirçizadə (sonralar Milli Elmlər Akademiyasının müxbir üzvü seçildi) ilə sıx təması hiss olunurdu. O illərdə nisbətən gənc Həmidə Abbasova, Həsən Mirzəyev, Bilal Muradov, Musa Həsənov, habelə Zeynal Tağızadə, Mirzəcavad Bağırov, Böyükxanım Rəhimova, Sona Qasımova nüfuzlu dilçilərdi. İnsaf naminə, Afad Qurbanov istedadı ilə seçilirdi. Və bu, az sonra özünü doğrultdu. Gənc ikən elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə yiyələndi...

Mənim məzunu olduğum Pedaqoji İnstitutla daima bağlılığım səngiməmişdir. Görünür, onun divarları soyuq olmamışdır, eləcə də müəllimləri, qayğılarını əsirgəməmişlər. Maraqlıdır, bu gün də nəsillərin dəyişməsinə baxmayaraq həmin ülfət, rəğbət qalır.

Professor Afad Qurbanov dilçi - alimlərimizdən ən məhsuldar fenomendir. Müxtəlif sahələrində sanballı kitablar yazmışdır xeylisi məhz ali pedaqoji institutlar üçündür. Bu, onun təhsillə sıx bağlılığından irəli gəlir. Deməli, Afad Qurbanov sözün həqiqi mənasında müəllimdir - pedaqoqdur. Auditoriyada bunu daha peşəkar hiss etmək mümkündür.

A.Qurbanovu xeyirxah Vətən dilçisi hesab edirəm: onun aspirantları və dissertantlarının sayını yalnız rəsmi siyahıdan bilmək olar. Şəxsən tanıdığım dostlarımdan, qələm sahiblərindən neçəsi məhz böyük alimin yetirmələridir: bəzilərinin dissertasiya müdafiəsində iştirak etmişəm, hətta doğma Pedaqoji Universitetin rektoru işlərkən belə, özünü necə təmkinli, sadə, obyektiv apardığının şahidiyəm. Heç vaxt "Mən"lə yola getməmişdir, amma alimin "Məni" fəaliyyətində idi. Bir fakt kifayətdir ki: 1959-cu ildən Pedaqoji Universitetdəyəm (1965-1968 istisna olmaqla), bir neçə rektor görmüşəm, inzibatçısı da, sakiti də vardır, lakin Afad Qurbanov qədər çevik, estetik ideallı, işinə haram qatmayan ikinci rektora rast gəlməmişəm. Bu inamımı sağ qalan yoldaşlar təsdiqləyə bilərlər! Universitetin siması elə dəyişdi - yalnız qibtə etmək olardı...

Afad Qurbanov xarakterce təmkinli, mühakiməcə məntiqli, söz eşitməkdə dəqiqliyi sevən, ətrafını görməyi bacaran şəxsdi. Digər keyfiyyətlərini də sadalamaq mümkündü, həssaslığına gəlincə: "Maarif" Dövlət Tədris Nəşriyyatına baş redaktor, eləcə də, eyni vaxtda direktor əvəzi vəzifəsinə gələndə (1984-1992) Afad Qurbanovun siyahıda (formal) dərslik - kitabına rast gəldim. Limit də məhduddu, nəzarətdə idi. Əsəri (dərsliyi) daxili plana saldım, nəzarətimə götürdüm. Bir aydan sonra katibə dedi ki, Afad Qurbanov sizi görmək istəyir. Dərhal yerimdən qalxıb onu qarşıladım, içəri keçdi, üzbəüz oturduq, hiss elədim nəsə sözlüdür. Hazırdım ona cavab verim. Gözləmədiyim halda dedi:

- Allahverdi müəllim, mən başqa məsələ barədə düşündüm. - Eynəyini çıxartdı. - Gözləyirdim, xeyli sizin qəbulunuzda oturaram. Bura həmişə belə olmuşdur. Siz isə. - Eynəyini dəsmalı ilə silib gözünə taxdı. - Ona görə ki elmə, alimə qiymət verirsiniz. "Azərbaycan müəllimi"ndə (1976-1984) də bunu hiss eləmişdim...

Katibənin gətirdiyi çaydan içdi. - Onu qabaqladım:

- Professor, - dedim. -Yeni dərsliyinizi planlaşdırdıq. Çalışacam Mətbuat Komitəsindən də keçirim.

Təşəkkür etdi. İşlədiyim dillərdə professor hər bir kitabının nəşrinə həssaslıqla yanaşırdı, korrekturasınacan maraqlanırdı. Öncə görüşürdük, şirin söhbət edirdik...

Afad Qurbanov sözün həqiqətində böyük də ziyalı idi, alimlərlə tərəf - müqabil olmağı bacarırdı. Bu "bacarmaq" sözünü təsadüfən işlətmirəm: indi çox çətin "peşədir". Elmdə nə payı, nə də umacağı olmayan alimlərimiz var - iki kəlmə danışmağı bacarmır, qulaq asmağı da. Amma tale məqamlarında şirə, aslana dönürlər. Belə yarımçıqlar heyif ki, günbəgün azalmaq əvəzinə çoxalır. Mən kənarda olsam da qulağıma dəyirdi ki, vəzifədən düşəndən sonra görkəmli alimə "girişir", sanki onun icazəsiylə oturub durmamışdır! Nə yaxşı, bu cür cırlar var - yoxsa yaxşıların qədri bilinməzdi. Professor A.- Qurbanov son nəfəsinəcən şəxsiyyətini qorudu...

Mən həyatda pis yaşamamışam, saysız alimlərlə ünsiyyətim olmuşdur. Elesiylə söhbətim olmuşdu o məcraya gəlib - yazdıqları ilə öyünüb, şişirdib - fetişləşdirib. Lakin Afad Qurbanov belə amallı deyildi. Onun təvazökarlığı "görkəmliyini" üstələyirdi və məşhur türk yazıçısı Yaşar Kamalın kəlamını xatırladırdı: "Mənim üçün yazdıqlarım yox, namusum önəmlidir".

O, namusla yaşadı və əbədiyyata qovuşdu. Bir vaxt o, hər dəfə Universitetə ayaq basanda elə bilirdim qarşıma professor Afad Qurbanov qarşıma çıxacaq, ayaq saxlayacaq, beş-on dəqiqə söhbət edəcəyik.

Bu dəfə elə olmadı, birinci mərtəbəyə düşdüm. Alimin qızılgüllər içindən boylanan şəkliylə üzbəüz dayandım. Onun nurlu sifəti, eynəyindən baxan gözləri laldı, sanki bütün sözlərini deyib qurtarmışdır. Bəli, həqiqətdi bu. O, deyə bilmədiyi sözləri öz yetirmələrinə vəsiyyət etmişdir...